Qəzet 1931-ci ilin aprelindən çıxır

# DƏNİZ

14 fevral 2014-cü il
№ 5-6(8919)
Qiymәti 38 qәpik

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin qəzeti



**...Azərbaycan dinamik şəkildə inkişaf edir. Əhali artır, iqtisadiyyat inkişaf edir. Bizim gələcək sənaye inkişafımızla bağlı böyük planlarımız vardır. Azərbaycan yüksək texnologiyaları ilə özünü göstərəcəkdir. Azərbaycan müasir industrial ölkəyə çevriləcəkdir. Yüzlərlə, bəlkə minlərlə yeni müəssisə yaranacaqdır...**

**Bu illər ərzində Azərbaycan böyük uğurlara imza atmışdır. Şəhərlərimiz abadlaşdı. Hər bir şəhərdə, hər bir rayonda abadlıq işləri görülür, ictimai yerlər salınır, parklar, xiyabanlar, mədəniyyət ocaqları, küçələr, binalar abadlaşır. Əlbəttə ki, Bakı hər bir şəhər üçün nümunədir. Bakı bu gün artıq dünya miqyasında ən gözəl şəhərlərdən biridir, dünyanın ən gözəl şəhərlərindən biridir. Əlbəttə, təbiidir ki, digər şəhərlər də Bakıya oxşamaq istəyir. Ancaq hər şəhərin öz xüsusiyyəti, tarixi, özəlliyi vardır. Əsas odur ki, insanlar üçün hər bir yerdə, hər bir şəhərdə, hər bir kənddə yaşamaq, işləmək, istirahət etmək üçün normal, yaxşı şərait yaradılsın.**

**Bu gün Azərbaycan dövləti güclü dövlətdir, Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır. Biz bu təhlükəsizliyi, ictimai asayişi, iqtisadi inkişafı təmin edirik. Azərbaycan dünya miqyasında öz sözünü deyən ölkələrdəndir. Bizim hər bir məsələ ilə bağlı öz fikirlərimiz, mövqeyimiz vardır. Beynəlxalq müstəvidə müstəqil siyasət aparmaq üçün ilk növbədə, daxildə bütün işlər lazımi səviyyədə təşkil edilməlidir. Əlbəttə ki, bizim iqtisadi gücümüz, iqtisadi müstəqilliyimiz siyasi müstəqilliyimizi böyük dərəcədə gücləndirmişdir.**

**Azərbaycanda ərzaq təhlükəsizliyi məsələləri həll edilir. Nəqliyyat təhlükəsizliyi həll olunur. Bu gün biz dünya üçün, nəinki qitə üçün, dünya üçün nəqliyyat mərkəzinə çevrilirik. Əlbəttə ki, infrastruktur layihələri bizim coğrafi vəziyyətimizi daha da yaxşılaşdırır. Çünki infrastruktur, logistika, nəqliyyat infrastrukturu olmadan heç bir coğrafi vəziyyət heç bir məna daşımır. Necə ki, təbii resurslar. Dənizin altında, dərinlikdə yerləşən təbii resurslar çıxarılmasa, heç bir dəyəri yoxdur. Ancaq o dəyər təbii resurslar çıxarılanda yaranır. Ona görə, enerji, nəqliyyat, ərzaq təhlükəsizliyi bizim əsas diqqət yetirdiyimiz sahələrdir və hər istiqamət üzrə gözəl nəticələr vardır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 18** **Bakı şəhəri, 24 yanvar 2014-cü il**



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli sərəncamının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi" təsdiq edilsin (1 nömrəli əlavə).
2. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin strukturu" təsdiq edilsin (2 nömrəli əlavə).

**Artur RASİ-ZADƏ,**
**Azərbaycan Respublikasının Baş naziri**

## BƏRƏ TERMİNALI PAYTAXTIN MƏRKƏZİNDƏN KÖÇÜRÜLƏCƏK

**Nəqliyyat Nazirliyi 2014-cü il iyunun sonunda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının bərə terminalının Ələt qəsəbəsindəki yeni limana köçürülməsi prosesinə başlamağı planlaşdırır.**



Bu barədə nəqliyyat nazirinin müavini Musa Pənahov məlumat verib. Nazir müavini bildirib ki, bərə terminalının tikinti işləri sürətlə davam edir:" Əgər işlər planda nəzərdə tutulan qaydada getsə, bərə terminalının paytaxtın mərkəzindən tezliklə çıxarılması üçün imkan yaranacaq."

M. Pənahov qeyd edib ki, eyni zamanda, konteyner və quru yük terminalının yaradılması istiqamətində də fəal iş aparılır. Perspektivdə şərqdən konteyner yüklərinin daşınmasını təmin etmək məqsədi ilə müasir tələblərə uyğun konteyner terminalının yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, yeni beynəlxalq limanın tikintisinə 2010-cu ilin noyabrında başlanıb. Liman ildə 11,6 milyon ton yük qəbul edə biləcək. Müasir liman infrastrukturunun yaradılması Bakı-Tbilisi-Qars dəmir yolu üzrə yüklərin daşınmasını təmin etmək baxımından vacibdir.

## “DƏNİZ LİMANLARI HAQQINDA” QANUN LAYİHƏSİ MÜZAKİRƏ EDİLİB

**Yanvarın 31-də Milli Məclisin İqtisadi siyasət komitəsinin iclası keçirilib. İclasın gündəliyində bir məsələ - “Dəniz limanları haqqında” qanun layihəsi müzakirə edilib.**

Komitə sədri Ziyad Səmədzadə layihə barədə məlumat verərək bildirib ki, bu qanun Azərbaycanın dəniz limanlarında ticarət gəmiçiliyindən yaranan münasibətləri tənzimləyir, limanların inşası, açılması, bağlanması, onlarda fəaliyyətin həyata keçirilməsi, habelə dəniz limanlarında fəaliyyətin dövlət tənzimlənməsinin əsaslarını müəyyən edir. Sənəddə bildirilir ki, limanın inşası, qurulması və maddi-texniki təchizatı başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən limanın fəaliyyətə başlamasına hazırlıq səviyyəsi yoxlanılır və müsbət nəticə olduğu təqdirdə mərkəzi icra hakimiyyəti orqanının qərarı əsasında liman fəaliyyət göstərilməsi üçün açıq elan edilir.

Qanun layihəsi müzakirə edildikdən sonra Milli Məclisin plenar iclasına tövsiyə olunub.

## “NEFT DAĞILMALARINA QARŞI CAVAB TƏDBİRLƏRİ”

**Bakıda “Qafqaz Point” otelində “Neft dağılmalarına qarşı cavab tədbirləri” mövzusunda ikigünlük seminar keçirilmişdir.**

Azəbaycan Fövqəladə Hallar Nazirliyinin və “Statoil Azerbaijan” neft şirkətinin təşəbbüsü və dəstəyi ilə keçirilən seminarın işində bir sıra dövlət strukturlarının və neft şirkətlərinin nümayəndələri iştirak etmişlər.

Seminarda “Statoil” şirkətinin neftin dağılmasının qarşısının alınması sahəsində Şimal dənizi akvatoriyasında istifadə olunmuş təcrübənin Xəzərdə tətbiqi məsələsi müzakirə edilmişdir.

Azərbaycan fövqəladə hallar nazirinin müvini Etibar Mirzəyev bildirmişdir ki, təbii ehtiyatlarla zəngin olan Xəzər dənizi neft məhsulları ixracının tranzit yoludur: “ İldən-ilə hasilat artır, yeni quyular istismara verilir, tranzitin həcmi böyüyür. Bütün bunlar Xəzəryanı ölkələrin Xəzərin təhlükəsizliyini təmin etməsi məsələsini aktuallaşdırır. Norveç neftin dağıl-



ması ilə bağlı problemlərin aradan qaldırılmasında zəngin təcrübəyə malikdir. Ümid edirik ki, o, seminarın bütün iştirakçılarını maraqlandıracaqdır.”

“Statoil Azerbaijan” şirkətinin əməyin təhlükəsizliyi, sağlamlıq və ətraf mühit üzrə meneceri Şapur Sotodemaneş bildirmişdir ki, “Statoil” şirkəti neft dağılmalarının qarşısının alınmasında böyük təcrübəyə malikdir və bu təcrübəni Azərbaycanla bölüşməyə hazırdır. Ş. Sotodemanes demişdir:” Neft dağılmalarının yaranması zamanı vacib cəhət onların ləğvi prosesində tərəflərin rolunun dəqiq müəyyənləşməsidir. İnanırıq ki, bu seminar neft dağılmalarının qarşısının alınması üzrə Azərbaycanda həyata keçirilən dövlət layihəsinə öz töhfəsini verəcəkdir.”

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmişdir**
***1 nömrəli əlavə***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin NİZAMNAMƏSİ



## 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 22 oktyabr tarixli 6 nömrəli Sərəncamına əsasən yaradılmışdır.

1.2. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

1.3. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsini, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, dəniz nəqliyyatı sahəsində mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktlarını və bu Nizamnaməni rəhbər tutur.

1.4. Cəmiyyətin aparatı, törəmə müəssisələri, habelə idarə, filial və nümayəndəlikləri Cəmiyyətin strukturunu təşkil edir.

1.5. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:
tam halda – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti;
qısaldılmış halda – "AXDG" QSC;
Cəmiyyətin ingilis dilində tam adı – "Azerbaijan Caspian Shipping" Closed Joint-Stock Company;
Cəmiyyətin ingilis dilində qısaldılmış adı – "ACS" CJSC və ya "Caspian Shipping" CJSC.

1.6. Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, M.Ə.Rəsulzadə küçəsi, 5.

## 2. Cəmiyyətin hüquqi statusu

2.1. Cəmiyyət hüquqi şəxsdir, müstəqil balansa, banklarda hesablaşma hesabına və digər hesablara malikdir.

2.2. Cəmiyyətin ayrıca əmlakı vardır və öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir. Cəmiyyət qanunvericiliyə uyğun olaraq əqdlər, sazişlər, müqavilələr bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmələrdə, həmçinin arbitrajlarda iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir.

2.3. Cəmiyyət üzərində Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmiş və Cəmiyyətin adı göstərilmiş möhürə, müvafiq ştamplara və blanklara, bayraq, emblem, loqotip və digər fərqləndirici nişanlara, habelə xüsusi geyim formasına malikdir.

2.4. Cəmiyyət Azərbaycan Respublikasının Mülki Məcəlləsi və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamı ilə müəyyən edilmiş qaydada törəmə müəssisələrini, habelə idarə, filial və nümayəndəliklərini yarada, yenidən təşkil və ya ləğv edə bilər.

2.5. Dövlət Cəmiyyətin öhdəlikləri üçün cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün dövlətə məxsus səhmlərin dəyəri həddində risk daşıyır.

2.6. Cəmiyyət dövlətin üzərinə götürdüyü hər hansı öhdəliklərinə görə cavabdeh deyildir.

## 3. Cəmiyyətin əsas məqsədləri və fəaliyyət istiqamətləri

3.1. Cəmiyyətin əsas məqsədləri yerli və beynəlxalq daşımaların səmərəliliyinin artırılmasından, dənizdə həyata keçirilən neft-qaz və digər layihələrdə daşıyıcı, eləcə də ticarət gəmiçiliyinin fəaliyyət növləri üzrə xidmətlərin davamlı surətdə göstərilməsi üzrə qabaqcıl beynəlxalq təcrübənin və elmi-texniki innovasiyaların tətbiqindən, yerli və xarici fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli və rəqabətə davamlı xidmətlərin təqdim olunmasından və gəlir əldə edilməsindən ibarətdir.




3.2. Cəmiyyət bu Nizamnamənin 3.1-ci bəndində göstərilən məqsədlərə uyğun olaraq aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

3.2.1. öz gəmiləri və ya üçüncü tərəflərdən icarəyə və ya fraxta götürülmüş gəmilər vasitəsilə yurisdiksiyasından asılı olmayaraq, bütün limanlar arasında yerli və beynəlxalq yük və sərnişin daşımalarının, habelə ticarət gəmiçiliyinin fəaliyyət növləri üzrə xidmətlərin etibarlı və səmərəli həyata keçirilməsi;

3.2.2. yerli və xarici şirkətlər tərəfindən dənizdə aparılan neft-qaz və digər əməliyyatlarda daşıyıcı və ticarət gəmiçiliyinin fəaliyyət növləri üzrə xidmətlərin göstərilməsi;

3.2.3. daşımalara olan daxili tələbatın tam ödənilməsi üçün müasir tələblərə cavab verən müxtəlif növ gəmilərin əldə edilməsi və mövcud gəmilərin modernləşdirilməsi ilə Cəmiyyətə məxsus donanmaların inkişaf etdirilməsi və rəqabət qabiliyyətinin artırılması;

3.2.4. Cəmiyyətə məxsus donanmaların və limanların istismarının həyata keçirilməsi;

3.2.5. dəniz üzgüçülüyü təhlükəsizliyinin, qəza hallarının maksimum azaldılmasının, yüklərin mühafizəsinin və vaxtında çatdırılmasının, habelə sərnişinlərin təhlükəsizliyinin və onlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsinin təmin olunması üçün dəniz üzgüçülüyü qaydalarına riayət edilməsi;

3.2.6. Cəmiyyətin maddi-texniki bazasının gücləndirilməsi, mövcud istehsal gücündən səmərəli istifadə olunması, müasir texnika və texnologiyalardan istifadə etməklə, ətraf mühitə zərərli təsirin minimuma endirilməsi;

3.2.7. keyfiyyət və əmniyyətlilik standartlarının tətbiqi ilə əlaqədar sertifikatlaşdırılmadan keçmək üçün tədbirlərin görülməsi;

3.2.8. Cəmiyyətin aparatının, törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin işçilərinin sosial-məişət şəraitinin və rifahının yaxşılaşdırılması, peşəkarlıq səviyyəsinin artırılması, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi, habelə sosial təyinatlı obyektlərin (mənzil-tikinti kooperativləri, idman- sağlamlıq qurğuları, tibb, idarə sanitariyası, məktəbəqədər təhsil müəssisəsi, sanatoriya və istirahət sahələri, bağçılıq təsərrüfatları) yaradılması və idarə olunması;

3.2.9. gəmitikinti, gəmi təmiri, onlar üçün ehtiyat hissələrinin və texniki vasitələrin, o cümlədən gəmi sistem və qurğularının, elektrik və radionaviqasiya avadanlığının, gəmi mühərriklərinin, radionaviqasiya avadanlıqlarının, elektronaviqasiya cihazlarının montajı, sazlanması, təmiri, istehsalı, istismarı və saxlanılması xidmətlərinin göstərilməsi, qaynaq işlərinin görülməsi;

3.2.10. fraxt, o cümlədən berbout çarter, taym çarter və digər müqavilələr üzrə əməliyyatların həyata keçirilməsi;

3.2.11. gəmilərin satın alınması, çarter müqavilələri üzrə idarə edilməsi, icarəyə götürülməsi və verilməsi, lizinqi, onların istismarı və təmirinin təşkil edilməsi, habelə gəmilərə aid olan rabitə vasitələrinin ölkə daxilində və hüdudlarından kənarda icarəyə verilməsi və götürülməsi;

3.2.12. Cəmiyyət tərəfindən bağlanılmış müqavilələrin icrası ilə əlaqədar yüklərin qəbulu və təhvil verilməsi, saxlanılması, yüklərin yükləmə-boşaltma yerlərində, anbarlarda və göyərtələrdə yerləşdirilməsi, habelə yüklərin keyfiyyətinin və xarici görünüşünün, markasının müəyyənləşdirilməsi, zədələnmiş yerlərinə baxışın aparılması, yük planlarının və lyuk yazılarının tərtib olunması;

3.2.13. liman üzrə məcburi qaydaların, Azərbaycan Respublikasının yurisdiksiyasına aid olan ərazi sularında və limanlarda dəniz üzgüçülüyü qaydalarının tələblərinə riayət olunması və liman xidmətlərinin göstərilməsi;

3.2.14. Cəmiyyət tərəfindən bağlanılmış müqavilələrin icrası ilə əlaqədar yük sahiblərinə, liman idarəsinə və bütün digər maraqlı təşkilatlara məlumatların verilməsi, yük əməliyyatlarının gedişinin müşahidə olunması, gəmilərin limana girişi və limanda qalmaları ilə bağlı rəsmiləşdirmənin həyata keçirilməsi üçün Cəmiyyətə məxsus gəmilərin kapitanlarına məsləhətlərin verilməsi, yük sahibləri və digər maraqlı müəssisə və təşkilatlarla hesablaşmaların həyata keçirilməsi;

3.2.15. Cəmiyyət tərəfindən bağlanılmış müqaviləyə əsasən gəmilərin zəruri təchizat malları, yanacaq, qida məhsulları ilə təminatı və təmirinə nəzarət xidmətlərinin göstərilməsi;

3.2.16. dənizçilərin hazırlanması sahəsində ixtisasartırma kurslarının təşkili xidmətlərinin göstərilməsi;

3.2.17. müasir informasiya texnologiyalarının və proqram təminatının tətbiqi vasitəsilə Cəmiyyətin fəaliyyətinin səmərəliliyinin artırılması;

3.2.18. dibdərinləşdirmə işləri, dəniz üzgüçülüyünün təhlükəsizliyi üçün naviqasiya sədləri vasitələrinin qoyulması və onlara xidmət göstərilməsi prosesində iştirak edilməsi;

3.2.19. müxtəlif növ gəmilər vasitəsilə təhlükəli yüklərin qanunla müəyyən edilmiş qaydada daşınmasının, nəqlinin və saxlanılmasının təşkili ilə bağlı xidmətlərin göstərilməsi və belə yüklərin hərəkət təhlükəsizliyinin təmin edilməsi;

3.2.20. dənizdə dalğıc və qəza-xilasetmə xidmətlərinin göstərilməsi;

3.2.21. Cəmiyyətin istehsal və sosial bazasının inkişafına, onun maddi-texniki bazasının modernləşdirilməsinə, genişləndirilməsinə, yenidən qurulmasına, yeni texnika və texnologiyalarla təchiz edilməsinə xidmət edən investisiya fəaliyyətinin həyata keçirilməsi;

3.2.22. Cəmiyyətin fəaliyyətinə aid olan məsələlər üzrə müəyyən olunmuş qaydada elmi tədqiqat, layihələndirmə və tikinti-quraşdırma, o cümlədən müvafiq dövlət standartlarına uyğun olaraq, I və II məsuliyyət səviyyəli bina və qurğuların, gəmilərin və bərə keçidlərinin mühəndis-axtarış, layihələndirmə, tikinti-quraşdırma işlərinin həyata keçirilməsi və elmi nailiyyətlərin istehsalatda tətbiq edilməsi;

3.2.23. Cəmiyyət tərəfindən göstərilən xidmətlərin (işlərin) rəqabət qabiliyyətini gücləndirən texnoloji yeniliklərin tətbiq edilməsi;

3.2.24. Cəmiyyətin istehsal-təsərrüfat ehtiyaclarını təmin etmək üçün malların (işlərin, xidmətlərin) satın alınması üzrə əməliyyatların qanuna uyğun, beynəlxalq təcrübəyə və alqı-satqı standartlarına cavab verən Cəmiyyətin daxili prosedurlarının tələblərinə uyğun olaraq həyata keçirilməsi;

3.2.25. Cəmiyyətin infrastrukturunun etibarlı mühafizəsini təmin etmək üçün mühafizə xidmətlərinin və daxili nəzarət sistemlərinin təşkili;

3.2.26. Cəmiyyətin fəaliyyətinin və inkişafının təmin edilməsində müasir idarəetmə sistemlərinin və rabitə xidmətlərinin etibarlı mühafizə vasitələri ilə təchiz edilməklə təşkil olunması;

3.2.27. Cəmiyyətin törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin inkişafına dair uzunmüddətli proqnozların, məqsədli kompleks istehsal, elmi-texniki, iqtisadi və sosial proqramların hazırlanması, bu sahədə qəbul edilmiş dövlət proqramları da daxil olmaqla, onların icrasının təmin edilməsi;

3.2.28. Cəmiyyətin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə enerjiyə və material ehtiyatlarına qənaət rejiminin həyata keçirilməsi;

3.2.29. Cəmiyyətin fəaliyyətini təşkil etmək üçün kadr siyasətinin müəyyən edilməsi;

3.2.30. kadr potensialının formalaşdırılması üçün ixtisaslaşdırılmış ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin təsis edilməsi və idarə olunması, habelə elmi-axtarış fəaliyyətinin həyata keçirilməsi;

3.2.31. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olaraq, yerli və xarici banklardan, habelə beynəlxalq maliyyə institutlarından və digər mənbələrdən kredit vəsaitlərinin cəlb edilməsi, iştirakçı olduğu törəmə və birgə müəssisələrinin maliyyə-kredit fəaliyyətinin idarə olunması və onlara təyinatlı maliyyə yardımlarının və kredit vəsaitlərinin ayrılması;

3.2.32. dövlət ehtiyaclarının təmin edilməsi üçün daşımaların həyata keçirilməsi;

3.2.33. Cəmiyyətin mülkiyyətində, icarəsində, çarterində, istifadəsində olan gəmilərdə mühafizə işinin təşkili, yanğın təhlükəsizliyi sistemlərinin və mühafizəsinin təmin edilməsi, habelə gəmilərin və yüklərin mühafizəsinin təşkil edilməsi;

3.2.34. nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi;

3.2.35. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar konstruktor-texnoloji sənədlərin hazırlanması, texnoloji avadanlığın, mal-materialların və ehtiyat hissələrinin çatdırılması və onların servisinin həyata keçirilməsi;

3.2.36. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar islahatların aparılmasına, su nəqliyyatı və su nəqliyyatı təsərrüfatının inkişafına dair təkliflərin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi;

3.2.37. qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin dəniz nəqliyyatı sahəsində mərkəzi icra hakimiyyəti orqanına təqdim edilməsi;

3.2.38. Cəmiyyətin fəaliyyəti ilə bağlı risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və idarə olunması, habelə sığortalanma siyasətinin optimallaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;

3.2.39. Cəmiyyətin qeyri-maddi aktivlərinin idarə olunması və onun barəsində sərəncam verilməsi;

3.2.40. dövlət sirrinin və qanunla məxfi hesab olunan informasiyanın qorunmasının təmin edilməsi və ona riayət edilməsinə nəzarət olunması;

3.2.41. Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsinə aid olan beynəlxalq müqavilələrə qoşulması barədə dəniz nəqliyyatı sahəsində mərkəzi icra hakimiyyəti orqanına təkliflərin verilməsi, habelə həmin müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar tədbirlərin görülməsi;

3.2.42. Cəmiyyətin inkişafı ilə bağlı digər tədbirlərin görülməsi.

## 4. Cəmiyyətin nizamnamə kapitalı, əmlakı və mənfəəti

4.1. Cəmiyyətin nizamnamə kapitalı onun Nizamnaməsinə uyğun olaraq, təsisçinin qərarı ilə Cəmiyyətin mülkiyyətinə verilmiş və qanunla müəyyən edilmiş qaydada qiymətləndirilmiş aktivlərin balans dəyərindən təşkil olunur.

4.2. Cəmiyyətin əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən və digər maddi və qeyri-maddi aktivlərdən ibarətdir. Cəmiyyətin əmlakı onun müstəqil balansında əks olunur. Cəmiyyət əmlakı üzərində sahiblik, istifadə və sərəncam vermək hüquqlarını həyata keçirir.

4.3. Cəmiyyətin əmlakının dəyəri onun balansında göstərilir.

4.4. Cəmiyyətin nizamnamə kapitalı 383420621 manatdır, onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 1 manat olan 383420621 ədəd adi səhmlərdən ibarətdir.

4.5. Cəmiyyətin əmlakı aşağıda göstərilən mənbələr hesabına təşkil olunur:

4.5.1. nizamnamə kapitalına daxil olan əmlak;

4.5.2. maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsindən daxil olan gəlirlər;

4.5.3. qanunla qadağan olunmayan digər mənbələr.

4.6. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

4.7. Cəmiyyətin nizamnamə kapitalına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan, əmlak hüquqlarından və pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

4.8. Cəmiyyət qanunlarda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Cəmiyyətin, törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin fəaliyyətindən əldə edilmiş mənfəəti mərkəzləşdirilmiş fondlarda cəmləşdirmək və həmin vəsaitlər üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

## 5. Cəmiyyətin ali idarəetmə orqanı

5.1. Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır.

5.2. Cəmiyyətin ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamına uyğun olaraq həll edilir.

## 6. Cəmiyyətin icra orqanı

6.1. İdarə Heyəti Cəmiyyətin kollegial icra orqanıdır.



6.2. İdarə Heyəti qanunvericiliklə və bu Nizamnamə ilə Cəmiyyətin səhmdarlarının ümumi yığıncağına və sədrinə verilmiş müstəsna səlahiyyətlər istisna olmaqla, Cəmiyyətin idarə edilməsi ilə bağlı bütün məsələləri həll edir.

6.3. İdarə Heyətinin tərkibi 7 nəfərdən - Cəmiyyətin sədri, Cəmiyyət sədrinin birinci müavini və 5 sədrin müavinindən ibarətdir.

6.4. İdarə Heyətinin işinə Cəmiyyətin sədri rəhbərlik edir. Cəmiyyətin sədrini və onun müavinlərini (İdarə Heyəti) Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

6.5. İdarə Heyəti:

6.5.1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada hesabat verir;

6.5.2. Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi üçün müvafiq təklifləri təqdim edir;

6.5.3. Cəmiyyətin Nizamnaməsinə, habelə nizamnamə kapitalına dəyişikliklər edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir;

6.5.4. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanılmasına razılıq verilməsi üçün müraciət edir;

6.5.5. Cəmiyyətin fəaliyyətinə dair illik iş proqramlarını, onların yerinə yetirilməsi haqqında hesabatları təsdiq edir;

6.5.6. Cəmiyyətin xarici şirkətlərlə birgə işinin məqsədəuyğunluğu barədə məsələlərə baxır;

6.5.7. Cəmiyyətin inkişaf strategiyasının formalaşdırılması barədə təkliflər verir;

6.5.8. Cəmiyyətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu dairəsində təşkil edir;

6.5.9. yeni texnologiyaların tətbiqi ilə bağlı qərarlar qəbul edir;

6.5.10. Cəmiyyətin daxili intizam qaydalarını müəyyən edir;

6.5.11. Cəmiyyətin aparatının struktur bölmələrinin, törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin rəhbərlərinin səlahiyyətlərini müəyyən edir;

6.5.12. Cəmiyyətin törəmə müəssisələrinin, idarə, filial və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi ilə bağlı qərarlar qəbul edir;

6.5.13. Cəmiyyətin perspektiv inkişaf planı və digər hüquqi şəxslərə kapital qoyuluşu barədə qərarlar qəbul edir;

6.5.14. Cəmiyyətin saxlanılması və ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün qanunda nəzərdə tutulmuş mənbələrdən (kreditlər, qrantlar, texniki yardımlar, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən daxilolmalar və s.) Cəmiyyətin sərəncamına daxil olan məqsədli vəsaitlərin təyinatı üzrə xərclənməsini təmin edir;

6.5.15. qanunvericiliyə uyğun olaraq, Cəmiyyətin, törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin balansında olan əmlaka münasibətdə sərəncam vermək hüququnu həyata keçirir, o cümlədən həmin əmlakı balansdan balansa, icarəyə və istifadəyə verir, Cəmiyyətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyur, silir (ləğv edir), qiymətləndirir, habelə təyinatını dəyişdirir;

6.5.16. qanunvericiliyə uyğun olaraq, Cəmiyyətin, törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin istifadəsi üçün ayrılmış dövlət torpaqlarının təyinatı üzrə istifadə edilməsinə, bu torpaqlardan istifadə hüquqlarının Cəmiyyətə, törəmə müəssisələrinə, habelə idarə, filial və nümayəndəliklərinə ötürülməsinə və həmin torpaqların mülkiyyətçiyə geri qaytarılmasına müvafiq qaydada razılıq verir;

6.5.17. müəyyən olunmuş qaydada Cəmiyyətin törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi haqqında qərarlar qəbul edir.

6.6. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. Həmin qərarlar Cəmiyyətin sədri tərəfindən imzalandıqdan sonra qüvvəyə minir.

6.7. Cəmiyyətin İdarə Heyətinin qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölündükdə, Cəmiyyətin sədrinin (Cəmiyyətin sədri olmadıqda, onun birinci müavininin) səsi həlledicidir.

## 7. Cəmiyyətin sədri

7.1. Cəmiyyətin sədri:

7.1.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir;

7.1.2. sədrin müavinləri arasında vəzifə bölgüsünü müəyyənləşdirir;

7.1.3. Cəmiyyətin İdarə Heyətinin fəaliyyətini təşkil edir və reqlamentini təsdiq edir;

7.1.4. Cəmiyyətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi, onun hüquq və öhdəliklərinin həyata keçirilməsi üçün zəruri tədbirlər görür;

7.1.5. Cəmiyyət adından etibarnaməsiz fəaliyyət göstərir, habelə Cəmiyyəti bütün dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda (o cümlədən, beynəlxalq təşkilatlarda) təmsil edir;

7.1.6. Cəmiyyətin işçilərinin say həddini və xərclər smetasını təsdiq edir;

7.1.7. Cəmiyyətin səmərəli fəaliyyət göstərməsini təmin edir;

7.1.8. Cəmiyyətin aparatının struktur bölmələrini müəyyən edir və onların əsasnamələrini və ştat cədvəlini təsdiq edir, müəyyən olunmuş qaydada aparatın işçilərini, habelə Cəmiyyətin törəmə müəssisələrinin, idarə, filial və nümayəndəliklərinin rəhbərlərini, onların müavinlərini, baş mühasiblərini və digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barədə həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq edir;

7.1.9. Cəmiyyətin törəmə müəssisələrinin, idarə, filial və nümayəndəliklərinin nizamnamələrini və əsasnamələrini təsdiq edir;

7.1.10. Cəmiyyətin qərarlarının yerinə yetirilməsinə nəzarəti təşkil edir;

7.1.11. Cəmiyyətin əmlakı barədə qanunlarla və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada sərəncam verir;

7.1.12. Cəmiyyətin idarə olunması ilə əlaqədar daxili sənədləri təsdiq edir;

7.1.13. müqavilələr (o cümlədən, xarici şirkətlərlə) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

7.1.14. etibarnamələr verir, banklarda hesablaşma hesabı və digər hesablar açır, hesabları və tədiyə tapşırıqlarını imzalayır;

7.1.15. Cəmiyyətin idarə edilməsi, cari fəaliyyətinin tənzimlənməsi üçün ona verilmiş səlahiyyətlər daxilində icrası məcburi olan əmrlər, sərəncamlar və göstərişlər verir;

7.1.16. Cəmiyyətdə, törəmə müəssisələrində, habelə idarə, filial və nümayəndəliklərində beynəlxalq maliyyə, kadr, təchizat və digər idarəetmə qaydalarının və standartlarının tətbiqi ilə bağlı tədbirlər görür;

7.1.17. fəaliyyət istiqamətlərinə uyğun olaraq, komissiyalar, komitələr və işçi qrupları yaradır;

7.1.18. Cəmiyyətin mərkəzləşdirilmiş fondlarının yaradılması və istifadə olunması qaydaları barədə qərarlar qəbul edir;

7.1.19. Cəmiyyətin törəmə müəssisələri, idarə, filial və nümayəndəlikləri arasındakı münasibətlərdə yaranan mübahisələri müzakirə edir;

7.1.20. Cəmiyyətin törəmə müəssisələrinin, idarə, filial və nümayəndəliklərinin işinin təşkil edilməsi və onların təsdiq edilmiş gəlir və xərclər smetası üzrə xərclərinin ödənilməsini həyata keçirir;

*(Davamı 4-cü səhifədə)*



**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmişdir**
*1 nömrəli əlavə*

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin NİZAMNAMƏSİ

*(Əvvəli 3-cü səhifədə)*

7.1.21. Cəmiyyətin fəaliyyətini səmərəli təşkil etmək üçün hüquqi şəxs yaratmaqla (birgə müəssisələr) və ya hüquqi şəxs yaratmadan (alyanslar, ittifaqlar) birgə layihələri həyata keçirir və bu layihələri təsis sənədlərinə uyğun olaraq idarə edir;

7.1.22. Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş, habelə Cəmiyyətin fəaliyyət istiqamətlərinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.




7.2. Cəmiyyətin sədri öz vəzifələrini yerinə yetirə bilmədikdə, ezamiyyətdə və ya məzuniyyətdə olduqda, onun səlahiyyətlərinin icrası Cəmiyyətin sədri tərəfindən təsdiq edilmiş vəzifə bölgüsünə əsasən həyata keçirilir.

7.3. Cəmiyyətin sədri özünün ayrı-ayrı səlahiyyətlərinin icrasını Cəmiyyətin komissiya və komitə rəhbərlərinə həvalə edə bilər.

## 8. Cəmiyyətdə mühasibat uçotunun və maliyyə hesabatının aparılması

8.1. Cəmiyyət mühasibat və statistik uçotu Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" və "Rəsmi statistika haqqında" qanunlarına uyğun olaraq aparır. Cəmiyyət maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib edir.

8.2. Cəmiyyətin birinci maliyyə ili dövlət qeydiyyatına alındığı tarixdən başlayır və həmin ilin dekabrın 31-də başa çatır. Növbəti maliyyə ili isə yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır.

8.3. Şəffaflığın təmin edilməsi üçün Cəmiyyət illik maliyyə hesabatlarını hər il maliyyə ili bitdikdən sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 97 nömrəli qərarı ilə təsdiq edilmiş "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları" ilə müəyyən edilmiş müddətdə auditor rəyi ilə birlikdə, həmçinin Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanılması barədə məlumatı mətbu orqanda dərc etdirməyə borcludur.

8.4. Cəmiyyət illik maliyyə hesabatlarını hər il maliyyə ili bitdikdən sonra auditor rəyi ilə birlikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etməlidir.

8.5. Cəmiyyət mühasibat uçotunu təşkil edir, törəmə müəssisələrinin, idarə, filial və nümayəndəliklərinin rüblük və illik maliyyə hesabatına baxır, icmallaşdırır, həmçinin maliyyə-təsərrüfat fəaliyyəti barədə ümumi hesabat, balans tərtib edir.

8.6. Cəmiyyət törəmə müəssisələrinin, idarə, filial və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasının aparılmasını təmin edir.



## 9. Daxili audit və maliyyə nəzarəti

9.1. Cəmiyyət daxili audit xidmətini təsis edir. Daxili audit xidmətinin əməkdaşları öz funksiyalarını yerinə yetirərkən, müstəqil qiymət vermək, nəticə çıxarmaq hüququna malikdirlər.

9.2. Cəmiyyətin daxili audit xidmətinin əməkdaşları ali iqtisadi və ya hüquqi təhsilə və ya digər ixtisas üzrə ali təhsilə və audit, yaxud əlaqədar sahələrdə 4 il iş stajına malik olmalıdır.

9.3. Daxili audit xidməti aşağıdakıları yerinə yetirir:

9.3.1. Cəmiyyətin, törəmə müəssisələrinin, idarə, filial və nümayəndəliklərinin fəaliyyətinin Azərbaycan Respublikasının qanunvericiliyinə və Cəmiyyətin daxili sənədlərinə uyğunluğunu yoxlamaq;

9.3.2. Cəmiyyətin təsərrüfat fəaliyyətinin, habelə maliyyə vəziyyətinin dəqiq qiymətləndirilməsi məqsədi ilə bütün sahələrdə aparılan əməliyyatların mütəmadi nəzarətini aparmaq;

9.3.3. daxili audit yoxlamalarının nəticələri, habelə aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması haqqında Cəmiyyətin sədrinə məlumat və təkliflər vermək;

9.3.4. Azərbaycan Respublikasının qanunları və bu Nizamnamə ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

9.4. Cəmiyyətin bütün əməkdaşları daxili auditi həyata keçirən əməkdaşların tələbi ilə zəruri olan sənədləri təqdim etməyə, onlara öz vəzifələrinin icrası üçün lazımi şərait yaratmağa borcludurlar.

## 10. Cəmiyyətin müstəqil (kənar) auditi

10.1. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil (kənar) auditi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

## 11. Cəmiyyətin törəmə müəssisələri, habelə idarə, filial və nümayəndəlikləri ilə qarşılıqlı münasibətləri

11.1. Cəmiyyətin törəmə müəssisələri, habelə idarə, filial və nümayəndəlikləri ilə qarşılıqlı münasibətləri Azərbaycan Respublikasının qanunlarına, bu Nizamnaməyə, habelə onların nizamnamə və əsasnamələrinə və Cəmiyyətin daxili sənədlərinə uyğun olaraq tənzimlənir.

11.2. Cəmiyyət törəmə müəssisələri, habelə idarə, filial və nümayəndəlikləri ilə qarşılıqlı münasibətlərdə aşağıdakı səlahiyyətlərə malikdir:

11.2.1. Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin balansında olan əmlakın hüquqi və fiziki şəxslərə icarəyə verilməsinə razılıq vermək;

11.2.2. Cəmiyyətin törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin idarəetmə orqanlarını formalaşdırmaq;

11.2.3. Cəmiyyətin törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin təsərrüfat fəaliyyəti üzrə proqnoz göstəricilərinin formalaşdırılmasına və hesabatlara nəzarət etmək, bu məsələlərə aid tövsiyələr və təkliflər vermək, müzakirələrdə iştirak etmək;

11.2.4. Cəmiyyətin törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin fəaliyyətlərinin yekunlarına baxılmasını təmin etmək;

11.2.5. Cəmiyyətin törəmə müəssisələrindən, habelə idarə, filial və nümayəndəliklərindən onların təqsiri üzündən Cəmiyyətə dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək;

11.2.6. Cəmiyyətin törəmə müəssisələrinin, habelə idarə, filial və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətini təhlil və təftiş etmək.

## 12. Cəmiyyətin yenidən təşkili və ləğvi

12.1. Cəmiyyətin yenidən təşkili və ləğvi barədə qərarlar Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilir.

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmişdir**
*2 nömrəli əlavə*

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin strukturu

I. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin aparatı.

II. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin törəmə müəssisələri:

1. Azərbaycan Dövlət Dəniz Akademiyası;
2. "Dənizçi" yardımçı kənd təsərrüfatı müəssisəsi;
3. Xəzər Dəniz Nəqliyyat Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutu.

III. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyində olan hüquqi şəxs statusuna malik olmayan təşkilatlar (idarələr):

1. Dəniz Nəqliyyat Donanması;
2. Xəzər Dəniz Neft Donanması;
3. "Bibiheybət" Gəmi Təmiri Zavodu;
4. "Zığ" Gəmi Təmiri Zavodu;
5. İstehsalat Xidmətləri İdarəsi;
6. Sosial İnkişaf İdarəsi.

IV. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin ayrıca bölmələri (filial və nümayəndəlikləri):

1. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Türkiyə Respublikasındakı nümayəndəliyi;
2. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Rusiya Federasiyasındakı nümayəndəliyi;
3. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Qazaxıstan Respublikasındakı nümayəndəliyi;
4. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin İran İslam Respublikasındakı nümayəndəliyi;
5. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Türkmənistan Respublikasındakı nümayəndəliyi;
6. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Ukrayna Respublikasındakı nümayəndəliyi.



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 7** **Bakı şəhəri, 15 yanvar 2014-cü il**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 22 oktyabr tarixli 6 nömrəli Sərəncamının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 aprel tarixli 239 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11-ci hissədə "Xəzər Dəniz Gəmiçiliyi İdarəsi" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

1.2. həmin qərara 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət orqanlarının fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə funksiyaları"nın on altıncı hissəsində "Xəzər Gəmiçiliyi İdarəsi" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

1.3. həmin qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabineti fövqəladə komissiyasının tərkibi"ndə "T.Q.Əhmədov - Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin rəisi" sözləri "R.G.Vəliyev - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri" sözləri ilə əvəz edilsin;

1.4. həmin qərarla təsdiq edilmiş "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında Əsasnamə"-nin 9-cu hissəsinin doqquzuncu abzasında "Azərneft" birliyinin Xəzərgəmiçiliyi idarəsinin" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli 140 nömrəli qərarı ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikası ərazisinin sanitar mühafizəsi Qaydaları"nın 4.4-cü bəndində "Xəzər Dəniz Gəmiçiliyi İdarəsi" sözləri və 4.9-cu bəndinin altıncı abzasında "Xəzər Dəniz Gəmiçiliyi" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 20 noyabr tarixli 251 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası tərəfindən Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin müəssisələri və təşkilatları ilə istehsal kooperasiyasının və ixtisaslaşmanın qorunub saxlanması və inkişafına dair sahə və sahələrarası sazişləri bağlayan və icrasını təmin edən nazirlik, komitə, şirkət, konsern, birlik və təşkilatların Siyahısı"nın on beşinci abzasında "Xəzər Dəniz Gəmiçiliyi" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 14 dekabr tarixli 237 nömrəli qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 804; 2005, № 1, maddə 49) 2 nömrəli əlavə - "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə ödənişsiz və ödənişli məlumatların növləri"nin "Ödənişli məlumatlar" bölməsinin 5-ci hissəsinin altıncı abzasında "Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi, Xəzər Neft Donanması" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 21 iyun tarixli 103 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 381; 2002, № 11, maddə 675; 2004, № 9, maddə 750, № 12, maddə 1077; 2006, № 9, maddə 822; 2007, № 2, maddə 185; 2008, № 5, maddələr 430, 432; 2009, № 9, maddələr 738, 757, № 10, maddə 857) ilə təsdiq edilmiş "Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları"nın 2.4-cü bəndində "Dövlət Xəzər Dəniz Gəmiçiliyinə" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 9 iyul tarixli 115 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 462; 2005, № 1, maddə 49) ilə təsdiq edilmiş "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatlardan istifadəyə görə ödəmə dərəcələri və qaydaları"nın 2-ci hissəsinin cədvəlinin V bölməsində "Xəzər Dəniz Gəmiçiliyi, Xəzər Neft Donanması" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

7."Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının, habelə onlara bərabər tutulan şəxslərin MDB dövlətlərinə nəqliyyatda gediş güzəştlərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 25 avqust tarixli 133 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 528; 2006, № 6, maddə 569; 2007, № 2, maddə 199; 2009, № 9, maddə 736) 1-ci hissəsinin ikinci abzasında "Azərbaycan Respublikası Dövlət Xəzər Dəniz Gəmiçiliyi" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 aprel tarixli 75 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 321; 2002, № 11, maddə 675; 2006, № 9, maddə 822; 2009, № 8, maddə 675; 2012, № 10, maddə 1021) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları"nın 1.11-ci bəndində "Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyində, Xəzər Dəniz Neft Donanması Baş İdarəsində" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555; 2005, № 11, maddə 1065; 2006, № 12, maddə 1161; 2007, № 7, maddələr 737, 738; 2008, № 1, maddə 36, № 2, maddə 104, № 6, maddələr 582, 584, 586, № 7, maddələr 680, 681, 682; 2009, № 7, maddə 609, № 10, maddə 848; 2010, № 6, maddə 566, № 7, maddə 704, № 8, maddə 760; 2012, № 3, maddə 264, № 6, maddə 636; 2013, № 3, maddə 338, № 4, maddə 440, № 6, maddə 727, № 10, maddələr 1201, 1213) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nın "Memarlıq abidələri" bölməsinin "Səbail rayonu" hissəsinin 3228-ci və 3450-ci bəndlərinin "Abidənin adı" sütununda "Xəzər Dəniz Donanmasının inzibati" və "Xəzər Dəniz Gəmiçiliyinin" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 199 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 809; 2002, № 10, maddə 641; 2003, № 6, maddələr 342, 348; 2004, № 10, maddə 871; 2005, № 6, maddə 541, № 10, maddə 978; 2006, № 4, maddə 373, № 9, maddə 822, № 10, maddə 903; 2008, № 2, maddə 130; 2009, № 2, maddə 144, № 7, maddə 607, № 9, maddələr 736, 757, № 12, maddə 1065; 2012, № 12, maddə 1390; 2013, № 7, maddə 879) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadəyə görə birinci dərəcəli istehlakçıların (elektrik enerjisi təchizatının dayandırılmasına icazə verilməyən təşkilatların) Siyahısı"nın "Tam təsərrüfat hesablı istehlakçılar" bölməsinin beşinci abzasında "Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

11. "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 yanvar tarixli 2 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 47; 2007, № 4, maddə 391; 2008, № 5, maddə 447) 1-ci hissəsində "Bəşirov Aydın Ağəmi oğlu - Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi" sözləri "Vəliyev Rauf Göyüş oğlu - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri" sözləri ilə əvəz edilsin.

12. "İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 iyun tarixli 102 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 538; 2009, № 9, maddə 757; 2010, № 4, maddə 371; 2012, № 2, maddə 190) preambulasında "Xəzər Dəniz Gəmiçiliyinin" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyul tarixli 140 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 673; 2010, № 7, maddə 701) ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunu aparmalı və maliyyə hesabatlarını təqdim etməli olan ictimai əhəmiyyətli qurumların (kredit təşkilatlarından, sığorta şirkətlərindən, investisiya fondlarından, qeyri-dövlət (özəl) sosial fondlarından, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslərdən başqa) Siyahısı"-nın 9-cu hissəsi ləğv edilsin və 16-cı hissəsində "Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117; 2011, № 9, maddə 853; 2013, № 7, maddə 883, № 10, maddə 1232) ilə təsdiq edilmiş "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların Siyahısı"nda "Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi üzrə" sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üzrə" sözləri ilə əvəz edilsin.

**Artur RASİ-ZADƏ,**
**Azərbaycan Respublikasının Baş naziri**



# MÜSTƏQİL AZƏRBAYCANIMIZI DAHA QÜDRƏTLİ GÖRMƏK İSTƏYİRİKSƏ...

**Tanışlarımdan biri tez-tez gileylənir: ”Nəyə əl atıramsa, daşa dönür. Hansı işdən yapışıramsa, uğursuzluqla nəticələnir. Adamın gərək bəxti olsun.”**

Doğrudanmı, həyatda nəyəsə nail olmaq, başladığın işi axıra çatdırmaq, uğur qazanmaq üçün bəxt əsasdır? Hər müvəffəqiyyəti, hər uğuru bəxtin ayağına yazmaq, bəxtin gətirməsi kimi yozmaq nə dərəcədə doğrudur? Bəs bacarıq, sağlam düşüncə, özünə inam, qətiyyət, çətin anlarda düzgün qərarlar qəbul etmək qabiliyyəti, dözüm kimi keyfiyyətlər? Qısası, insanın təbiətində hansı cizgilər, xarakterində hansı keyfiyyətlər müvəffəqiyyətə təminat verir?

Bir əsrə yaxın ömür sürən ağbirçək nənəm Allah adamı idi və Allahı sevdiyi qədər də bəlkə Allah onu sevirdi. Günü ibadətlə keçsə də, çox sevdiyi Allahından özü üçün nə isə dilədiyi yadıma düşmür.Yaradandan umduğu yalnız bu idi: Ulu Tanrıya yalvarırdı ki, nəyi əllərindən alsa da, doğmalarının ağlına qıymasın.

Onun bu diləyinə, bu arzusuna, bu yalvarışlarına o vaxt uşaq sadəlövhlüyü ilə gülürdüm. Düşünürdüm ki, başqaları əzizləri üçün var-dövlət diləyir, nənəm isə... Çox-çox sonralar anladım dünyanın hər



üzünü görmüş, yaxşını yamandan, qaranı ağdan gözəl seçən, hər şeyin sərhəddini, həddini bilən ağbirçəyimin bu sirli-sehirli dualarının mənasını, mahiyyətini, bu istəyin arxasında nələr durduğunu. Başa düşdüm ki, söz boğçası “Ağılsız adam kor kimidir”, “Qüvvə hər şeyi, ağıl qüvvəni sındırar”, “Ağıllı olmayan abırlı olmaz”, “Ağıllı zəhmətinə bel bağlar, ağılsız ümidinə”... kimi kəlamlarla dolu ağbirçək nənəm Yaradandan əzizləri üçün bircə ağıl istəməklə, əslində çox şey, bəlkə də hər şey istəyir. Bir anlıq hər şeyi olan, amma ağıldan kəm adamı təsəvvürünüzə gətirin. Gətirdiniz?! Əbəs yerə demirlər ki, Tanrı cəzalandırmaq istədiyi adamın əvvəlcə ağlını alır, daha doğrusu bircə ağlını alır...

On səkkizinci əsrdə yaşamış fransız yazıçısı və filosofu Jan Leron Dalamberin belə bir ifadəsi var: “ Vay o adamın halına ki, özləri öz gözlərində müdrik, alim görünürlər.”

Deməli, cahil adamın ilk xüsusiyyəti özünü ağıllı saymasıdır. Və bəla təkcə belələrinin özlərini ağıllı saymasında deyil. Hər şeyi bildiklərini düşündükləri üçün öyrənməyə meylli olmurlar. Onları başa salmaq cəhdi də birqayda olaraq uğursuzluqla nəticələnir: “Hər şeyi anlayıram, axmaq- zad deyiləm ki!” Belə düşünənlər nə qədər çox olsa, cəmiyyət inkişafdan bir o qədər çox qalır.

Ağıl sədaqətli yol yoldaşın, məsləhətçin deyilsə, başladığın işi uğurla başa çatdırmaq, hər hansı müsbət nəticələr əldə etmək barədə düşünməyə dəyməz. Sağlam düşüncə, vəziyyəti qiymətləndirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti insanın həyatda öz yerini tapması, özünü təsdiq etməsi ilə yanaşı, həm də onun öz üzərində hakim olması üçün lazımdır. Özünü dərk etməyən, yalnız saya bildiyi üçün özünü ağıllı sayan, burnundan uzağı görməyənlərlə çoxmu uzağa getmək olar? Müstəqil Azərbaycanımızı daha qüdrətli görmək, ölkəmizdə tamamilə demokratik



cəmiyyət qurmaq arzumuzu yalnız sağlam düşüncəli, vətəndaş kimi çiyninə düşən vəzifələri yerinə yetirməyə, mənəvi dəyərlərimizi qoruyub saxlamağa və inkişaf etdirməyə qadir adamlarla gerçəkləşdirmək mümkündür. Nə qədər qəribə olsa da, özünü dərk etməyənlər başqalarına ağıl öyrətməyə daha çox meylli olurlar. Atalarımız yəqin belə yerdə deyiblər: “Özünə umac ova bilmir, başqalarına əriştə kəsir”.

Təkəbbürlü, qaba, paxıl, bədxah, kinli, acgöz adamların çoxu şüur səviyyəsi yüksək olmayanlardır. Bəlkə elə buna görə bəziləri ağıllı düşməni səfeh dostdan üstün tutub. Dünya gör-götür dünyasıdır. Təbii ki, səhvsiz insan yoxdur. Lakin insan həyatda həmişə öyrənməli, öz səhvlərindən, başqalarının səhvlərindən nəticə çıxarmağı bacarmalıdır. Bunu unudanları, təbii ki, uğur, müvəffəqiyyət də tez unudur.

**Rasif TAHİROV**

# DƏNİZLƏRİN YARANMASI VƏ TARİXİ

***(Əvvəli qəzetimizin ötən sayında)***

Bundan sonra nerit adlanan zona başlayır. Ona şelf də deyilir. Bu, dəniz heyvanlarının ən çox yayıldığı və yaşadığı zonadır. Burada dəniz yosunları da çoxdur. Şelf zonasına günəş şüaları yaxşı daxil olduğundan bu sahə isti və işıqlı olur. Bu zonanın dərinliyi 400 metrə, eni isə adətən 50-70 kilometrə çatır. Okeanlarda bu zonanın eni bəzən 600 kilometr olur. Bu sahələrdə qumlar və gillər çökür. Sonra başlayan zonaya kontinental astana deyilir. Burada dənizin dibi birdən-birə 800-2000 metrə qədər enir.



Kontinental astanaya birləşən sonrakı zonaya batial zona deyilir. Buraya günəş şüaları daxil ola bilmir. Batial zonada kor və görmə qabiliyyəti zəif olan heyvanlar yaşayır.

3000 metr dərinlikdən sonra abissal zona başlayır. Burada ən incə gillər çökür. Bu zonada daim sakitlik və qaranlıq hökm sürür. Buradakı həyat bizə hələ o qədər məlum deyil.

Daşlaşmış heyvan qalıqlarına əsasən geoloqlar layların nisbi yaşını təyin edir və onların hansının əvvəl, hansının sonra əmələ gəldiyini müəyyənləşdirirlər.

Paleontologiya elmi heyvan və bitki aləminin inkişaf sxemini müəy-



yən etmişdir. Bu sxemə əsasən hər bir geoloji era dənizdə və quruda yaşayan bitki və heyvanlar aləminə görə fərqlənir. Məsələn, silur adlanan dövrdə trilobitlər- xərçəngə bənzər dəniz heyvanları yaşamışdır. Lakin onların ölçüsü hazırkı xərçənglərdən fərqli olaraq 1 metrə çatırdı.

Karbon dövründə yer səthi böyük ölçülü lepidodendiron siqillyariya və kalamitlərdən ibarər bitki aləmi olan meşələrlə örtülü idi. Onların hündürlüyü 40 metrə çatırdı. Bu meşələrin qalıqları daş kömür mədənlərini əmələ gətirmişdir.

Yura dövrü spiral şəklində, üzəri qəribə naxışlarla bəzənmiş ammonitlərin hakim olduğu bir vaxtdır. O zamanlar quru sahələrində nəhəng sürünənlər -uzunluğu 20 metrə çatan dinozavrlar və diplodoklar həyat sürmüşdür.

Üçüncü dövr dənizlərində molyuskalar, quru sahələrində isə fəqərəlilər yaşamışdır. Bu dövrün heyvanat aləmi müasir dövr canlılarına daha çox bənzəyir. Hazırda bizə məlum olan bitki və heyvanların “ulu babalarına” üçüncü dövr çöküntülərində rast gəlmək olur.

Bəs dənizlər necə əmələ gəlmişdir?

Dənizlərin əmələ gəlməsi, onun ümumi inkişafının ayrılmaz bir hissəsini təşkil edir.

Qalaktikanı təşkil edən səma cisimlərinin tərkibinin 90 faizi hidrogen elementlərindən ibarətdir. Bütün səma cisimlərində və onların atmosferində hidrogen müəyyən edilmişdir. Ulduzların qızmış atmosferində, o cümlədən günəş atmosferində hidrogen elementi var. Qaz və incə toz hissəciklərindən ibarət olan ulduzlararası sahələrdə, böyük planetlər və onların səthində, kometalarda, nəhayət, yerə düşən meteoritlərdə də hidrogen iştirak edir.

Səma cisimlərindəki hidrogen atomları bizim planetimizdə dənizlərin əmələ gəlməsinə səbəb olan hadisələr zəncirinin ilk həlqələrini təşkil edir.



Yer kürəsinin 27,7 faizini oksigen atomları təşkil edir. Beləliklə, suyun tərkib hissəsini təşkil edən hidrogen və oksigen atomlarının göstərilən obyektlərdə olması heç bir şübhə doğurmur.

Planetlər kosmoqoniyasından alınan məlumatlar Yerin bir planet kimi meydana gəlməsi prosesində hidrogen və oksigen atomlarının geniş



miqyasda yarandığını göstərir. Aparılan geokimyəvi tədqiqatlar və təcrübələr də bunu sübut edir. Bu elementlər yüngül bazalt süxurlarının radiaktiv parçalanması , qızması və əriməsi əsnasında alınır. Həmin süxurların qızması və temperaturun artması nəticəsində onlardan müxtəlif buxar və qazlar ayrılmışdır. Demək, Yer kürəsinin su və qaz örtüyü onun qabığının əmələ gəlməsi və formalaşması ilə sıx surətdə əlaqədardır.

Uzaq keçmişlərdə Yerin atmosferi öz kimyəvi tərkibinə görə indikindən çox fərqli olmuşdur. Hazırda Yerin atmosfer qatı sərbəst oksigenlə çox zəngindir. Bu sərbəst oksigen sonralar Yerdə meydana gəlmiş üzvü aləmin həyat fəaliyyətinin məhsuludur.

Yer qabığını təşkil edən ən qədim süxurların izotoplara əsasən tədqiqi Yerin 5 milyard ilə yaxın yaşı olduğunu sübut edir. Lakin Yerin əmələ gəlməsindən sonra keçən dövr ərzində yerdə heç bir həyat nişanəsi olmamışdır. Həyat əmələ gəldikdən sonra Yerdə boisfer çox sürətlə inkişaf etməyə başlamışdır. Biosfer bizim planetin az bir hissəsini təşkil edir.

Yer kürəsi sial, sima, nifesima və nife təbəqələrindən ibarətdir. Bu adlar həmin təbəqələri təşkil edən əsas kimyəvi elementlərə görə verilmişdir. Birinci təbəqə əsasən silisium və alüminiumdan, ikinci silisium və maqneziumdan, üçüncü isə nikel və dəmirdən təşkil edilmişdir.

Yer kürəsində məlum olan bütün qırışıqlıq sistemlərinin əsasında sial təbəqəsi yatır. Bu onu sübut edir ki, kembriyə qədər olan dövrdəki yer qabığı indikinə nisbətən daha geniş olmuşdur.

Nisbətən kiçik olan müasir platformalar bu qədim platformaların qalığıdır.

Sonralar əmələ gələn dağlıq- qırışıqlıq zonaları isə bu platformanı kəsib-doğramış çatların yerini göstərən çapıqlardır.

Deməli, kimbriyə qədər olan dövrdə yer qabığının inkişafı onun sonrakı dövrlərdə inkişafından xeyli fərqli olmuşdur.

Müasir su və quru sahələrinin yer səthində paylanması mənzərəsi də çox qədim zamanlarda yer səthində vahid böyük platformanın olmasını sübut edir.

Əgər qlobusa nəzər salsaq, quru sahələrinin əsasən şimal, dənizlərin isə cənub yarımkürəsində yerləşdiyini görərik. Şimal yarımkürəsinin sahəsinin 39 faizini quru, 61 faizini isə dənizlər təşkil edir. Cənub yarımkürəsində isə 19 faiz quru, 81 faiz su sahəsi vardır.

Yer kürəsində bizə məlum qitələr cüt-cüt yerləşir, yəni hər bir şimal qitəyə cənub qitə uyğun gəlir. Şimali Amerikaya Cənubi Amerika, Avropa



və Asiyaya Afrika və Avstraliya müvafiq gəlir. Yalnız cənub qütbündə yerləşən Antarktida qitəsinə şimal qütbündə Şimal Buzlu okeanı təfavüt edir.

Şimal qitələrinin sahil xətləri daha çox girintili- çıxıntılıdır. Cənub qitələrin sahil xətləri isə nisbətən hamardır. Bu da onların daxili quruluşundan asılıdır.

Şimal qitələrində dağlar, cənub qitələrində isə düzənliklər daha çoxdur.

Şimal və cənub qitələri arasında bir sıra dənizlər yerləşir. Bu dənizlər yer kürəsini qurşaq kimi əhatə edir. Şimali və Cənubi Amerika arasında Meksika körfəzi və Qarayib dənizi, Avropa və Afrika arasında Aralıq dənizi, Mərmərə və Bənd dənizləri yerləşmişdir. Hazırda bu dənizlərin sahillərində çoxlu vulkanlar, zəlzələlər və şaquli düşüb-qalxmalar müşahidə edilir. Göstərilən qitələrin sahil xətləri arasında xeyli bənzəyiş vardır.

Biz xəyalən qlobus üzrə qitələri bir-birinə yaxınlaşdırsaq və onların arasında Qrenlandiya adası və Şimali Amerika arxipelağını yerləşdirsək, həmin qitələrin sahil xətlərinin bir-birinə müvafiq gəldiyini görərik. Bu zaman Braziliya Qvineya körfəzinə, Barfon torpağı Hudzon körfəzinə daxil olar, Şimali Amerika arxipelağı vahid qitəyə çevrilər, Madaqaskar adası və Ərəbistan yarımadası Afrikaya, Seylon adası Hindistana, Malay tağım adaları bir-birinə, Yeni Qvineya və Tasmaniya adaları isə Avstraliyaya birləşər.

**S.SALAYEV,**
**C. MAZANOV**

# *ÖTƏN İL DAHA ÇOX OĞLAN UŞAĞI DOĞULUB*

**Azərbaycanda oğlan uşaqlarının sayı artıb. Hətta bəzi mütəxəssislər 20 ildən sonra oğlanların evlənməyə qız tapmayacaqlarını düşünürlər. Çünki indi hər doğulan oğlan uşağına düşən qızların sayında fərq müşahidə olunur. Normada hər doğulan 106 oğlana 100 qız uşağı doğulmalıdır. Amma son illər bu norma pozulub. 2012-ci ildə 174000-dən çox uçaq doğulub ki, onun da 53 faizi oğlan, 47 faizi isə qızdır.**



Dövlət Statistika Komitəsindən Modern.az-ın sorğusuna cavab olaraq bildirilib ki, keçən il ölkədə 172671 körpə doğulub ki, onların 53,6 faizi (92574 nəfər) oğlanlar, 47,4 faizi (80097 nəfər) qızlardır.

2013-cü ildə dünyaya gələnlər arasında əkiz uşaqların sayında da artım olub. Belə ki, 2013-cü il təvəllüdlü körpələrin 2270- i əkiz doğulub. Əkizlərdən 1191 nəfərini oğlanlar, 1079 nəfərini isə qızlar təşkil edib.

*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrəmizdə)*

**A**

## Аварийная оговорка — Qəza qeyd-şərti

### AVERAGE CLAUSE

Условие страхования, предусматривающее франшизу. Аварийная оговорка содержится в большинстве серий стандартных оговорок по судам и грузам, а также в меморандуме к полису (или в конце полиса). В полисах по неморскому страхованию в аварийной оговорке обычно указывается, что убытки подлежат возмещению пропорционально отношению страховой суммы к страховой стоимости объекта страхования.

Franşizanı nəzərdə tutan sığorta şərti. Qəza qeyd-şərti gəmilər və yüklər üzrə standart qeyd-şərtlərin əksər seriyalarında, habelə sığorta şəhadətnaməsinə əlavə olunan memorandumda (və ya sığorta şəhadətnaməsinin sonunda) vardır. Qeyri-dəniz sığortası şəhadətnamələrdəki qəza qeyd-şərtində adətən dəymiş zərərlərin əvəzinin sığorta məbləğinin sığorta obyektinin sığorta dəyərinə olan nisbətinə mütənasib surətdə ödənilməsi göstərilir.

## Аварийный сертификат — Qəza sertifikatı

### SURVEY REPORT

Документ, который составляется аварийным комиссаром в удостоверение размера и причин убытков, причиненных застрахованному имуществу. Аварийный сертификат содержит подробные данные об обстоятельствах дела и все сведения, необходимые для окончательного расчета по убытку и оплаты страхового возмещения. К аварийному сертификату прилагаются копии документов, подтверждающих факт наличия убытков, их причину и размер, а также ответственность за них, о чем делается отметка в соответствующих пунктах аварийного сертификата.

Поскольку аварийный сертификат является официальным документом, по которому страховщик определяет свое отношение к убытку, необходимо, чтобы на все вопросы, предусмотренные его формой, были даны вполне обоснованные и справедливые ответы.

Sığortalanmış əmlaka vurulmuş zərərin miqdarını və səbəblərini təsdiqləmək məqsədilə qəza komissarı tərəfindən tərtib olunan sənəd. Qəza sertifikatı hadisənin səbəbləri barədə müfəssəl məlumatları, zərərə görə son hesablaşma və sığorta əvəzinin ödənilməsi üçün zəruri olan bütün məlumatları əhatə edir. Zərərlərin mövcudluğu faktını, onların səbəbini və miqdarını, habelə onlara görə məsuliyyət daşıyanı, - bu barədə qəza sertifikatının müvafiq bəndlərində qeyd aparılır, - təsdiqləyən sənədlərin surəti qəza sertifikatına əlavə olunur.

Qəza sertifikatı rəsmi sənəd olduğundan və sığortaçı zərərə münasibətini bu sənədlə müəyyənləşdirdiyindən, lazımdır ki, onun forması ilə nəzərdə tutulmuş bütün suallara tamamilə əsaslandırılmış və düzgün cavablar verilsin.

## Авария морская — Dəniz qəzası

### SEA ACCIDENT

Происшествия с судами, приведшие к гибели людей или нанесению им телесных повреждений, гибели или повреждению судов, повреждению портовых сооружений, грузов, а также иному ущербу имуществу либо окружающей среде. В Международном морском праве отсутствует унифицированное определение «авария морская» - оно встречается лишь в отдельных международных конвенциях. Согласно ст. 221 Конвенции ООН по морскому праву, авария морская означает столкновения судов, посадку на мель, др. морской инцидент или иное происшествие на борту судна либо вне его, приведшее к материальному ущербу или неминуемой угрозе причинения материального ущерба судну или грузу. Расследование аварии морской и ее классификация осуществляется на основе национального законодательства.

Согласно Международному морскому праву государство организует расследование квалифицированными лицами каждой аварии морской в открытом море с участием плавающего под его флагом судна, приведшей к гибели граждан другого государства или нанесению им серьезных увечий либо серьезному ущербу судам, установкам другого государства, а равно морской среде.

İnsanların həlak olmasına və ya onlara bədən xəsarətinin yetirilməsinə, gəmilərin məhv olmasına, zədələnməsinə, liman qurğularının, yüklərin zədələnməsinə, habelə əmlaka və ya ətraf mühitə digər zərərlərin vurulmasına gətirib çıxaran və gəmilərlə bağlı olan hadisələr. Beynəlxalq dəniz hüququnda «dəniz qəzası»nın unifikasiya edilmiş (vahid şəklə salınmış) tərifi yoxdur, ona yalnız ayrı-ayrı beynəlxalq konvensiyalarda rast gəlinir. Dəniz hüququ haqqında BMT Konvensiyasının 221-ci maddəsinə əsasən, dəniz qəzası dedikdə, gəmilərin toqquşması, saya oturması və s. dəniz hadisələri, o cümlədən, gəminin bortunda yaxud ondan kənarda gəmiyə və ya yükə maddi zərərin vurulmasına və ya maddi zərərin vurulmasının labüd təhlükəsinə gətirib çıxaran hadisələr nəzərdə tutulur. Dəniz qəzasının təhqiqatı və onun təsnifatı milli qanunvericilik əsasında həyata keçirilir. Beynəlxalq dəniz hüququna əsasən, dövlət onun bayrağı altında üzən gəminin iştirakı ilə açıq dənizdə digər dövlətin vətəndaşlarının həlak olmasına və ya onlara ciddi xəsarətin yetirilməsinə, gəmilərinə, qurğularına, habelə dəniz mühitinə ciddi zərərin vurulmasına gətirib çıxarmış hər bir dəniz qəzasının ixtisaslı şəxslər tərəfindən təhqiqatının aparılmasını təşkil edir.

## Авизо — Avizo

### ADVICE

1) Извещение об изменениях в состоянии взаимных расчетов, посылаемое одним контрагентом другому;

2) Извещение об отгрузке товаров покупателю или комиссионеру, содержащее обычно перечень товаров, данные о времени их отправки и виде транспорта, а также другие транспортные реквизиты;

3) Извещение об изменениях в состоянии взаимных расчетов банков-корреспондентов между собой и с клиентами. Посылкой авизо банк информирует клиента об открытии аккредитива, о выставлении тратты, ее оплате либо отказе сделать это, а также о поступлении переводов на счет клиента.

Обязанность контрагентов посылать друг другу авизо в определенных случаях может быть обусловлена договором.

1) Bir kontragentin digərinə göndərdiyi qarşılıqlı hesablaşmaların vəziyyətindəki dəyişikliklər haqqında bildiriş;

2) Alıcıya və ya komissiyonçuya malların göndərilməsi haqqında bildiriş. Adətən, malların siyahısını, onların göndərilmə vaxtı və nəqliyyat növü haqqında məlumatları, habelə digər nəqliyyat rekvizitlərini əhatə edir.

3) Müxbir bankların bir-biri ilə və müştərilərlə qarşılıqlı hesablaşmalarının vəziyyətindəki dəyişikliklər haqqında bildiriş. Avizonu göndərməklə, bank müştəriyə akkreditivin açılması, trattanın təqdim edilməsi, onun ödənilməsi və ya ondan imtinanın edilməsi, habelə müştərinin hesabına köçürmələrin daxil olması barədə məlumat verir. Kontragentlərin bir-birlərinə avizo göndərmək öhdəliyi müəyyən hallarda müqavilə ilə şərtləndirilə bilər.

*(Ardı var)*

# Dəniz xəbərləri – "Dəniz"in xəbərləri

## HİND OKEANINDA TURİST GƏMİSİ BATIB



**Benqal körfəzində turistləri daşıyan gəmi qəzaya uğramışdır. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.**

Hadisə nəticəsində 21 nəfər həlak olmuşdur. 13 turist xilas edilmişdir. Xilasedicilər gəmidə olmuş 9 nəfərin axtarışını davam etdiriblər.

İlkin məlumata görə, bütün turistlər Hindistan sakinləri olub. Fəlakətin səbəbləri araşdırılır.

Agentlik qeyd edir ki, Hindistanda gəmilərin batması nadir hadisə deyil. Bu fəlakətlər, adətən, təhlükəsizlik proqramlarına əməl olunmadığından, həmçinin gəmilərin həddən artıq yüklənməsi ucbatından baş verir.

## TANKERDƏ PARTLAYIŞ BAŞ VERİB

**Çində Hindistana məxsus neft tankerində partlayış baş verib. Partlayış nəticəsində 7 nəfər həlak olub.**

APA-nın "Sinhua" agentliyinə istinadən verdiyi məlumata görə, hadisə Çinin Çyetszyan əyalətində baş vermişdir.

Partlayış neft tankerində təmir işləri aparılan zaman olmuşdur. Həmin vaxt orada 7 nəfər çinli fəhlə təmir işləri aparırmış.

50 min tonluq tankerin çənləri hadisə baş verən vaxt boş olmuşdur.

## YENİ YAXTA



**Beynəlxalq "Formula-1" avtoçempionatında çıxış edən "Jordan" komandasının sahibi, multimilyarder Eddi Cordan 53,3 milyon dollara superyaxta inşa etdirib.**

18 aya ərsəyə gətirilən və uzunluğu 47,7 metr olan "Sunseeker 155" yaxtasının sürəti 43 km/saatdır.

Milli.Az Daily Mail-ə istinadən bildirir ki, yaxta çox böyük olduğundan onun bir dəfə yanacaqla tam doldurulması üçün 46 min dollar gərəkdir.

4 göyərtəsi, 5 yataq otağı olan yaxtanın heyəti 11 nəfərdən ibarətdir. Yaxta eyni vaxtda 10 qonağı qəbul edə bilər.

200 ton ağırlığında yaxta birdəfəyə 4 min dəniz mili məsafəsini qət edə bilər.

Yaxtanı "Sunseeker İnternational" şirkəti inşa edib.

## GÖRÜNMƏZ SUALTI QAYIQ YARADACAQ



Rusiya sualtı gəmilərinin yeni materialları onları gözəgörünməz edəcək. Sualtı gəmidə hidrolokatorların siqnallarını neytrallaşdıran aktiv ötürücülər və pyezopolimer lövhələr quraşdırılacaq.

Dördüncü nəsil "Yasen" və "Borey" gəmilərində əldə edilən səs-küy göstəricilərinin saxlanılması Rusiya sualtı gəmilərinin aşkar olunmasını üç dəfə azaltmağa imkan verəcək.

Hazırda sualtı gəmini aşkarlama sistemindən gizlətmək üçün gövdənin hidrolokasiya əleyhinə xüsusi təbəqəsindən istifadə olunur.

Həmin təbəqədən istifadə zamanı gəmi 1 kilohersdən aşağı tezliklərdə işləyən hidrolokatorlardan müdafiə oluna bilmir. Hərbi Dəniz Donanmasında bildiriblər ki, bu zaman rus sualtı gəmiləri bu növ lokatorlar vasitəsilə aşkar edilmək üçün kifayət qədər zəifdir.

Elektronika tərkibli aktiv təbəqələr rəqibin radiolokatorlarının işlədiyi tezlikləri müəyyən edəcək və həmin tezliklərdə, lakin əks fəzada öz siqnallarını işə salacaq. Bu isə gəminin düşmən tərəfindən müəyyən edilməsini heçə endirəcək.

## KATER SÖVDƏLƏŞMƏSİ

Səudiyyə Ərəbistanının Müdafiə Nazirliyi Almaniyadan 100 ədəd mühafizə kateri alır. Sövdələşmənin məbləği 1,4 milyard dollardır. Gəmilər Almaniyanın "Lurssen" tərsanəsində inşa ediləcək.

*Xəbəri İTAR-TASS verib.*



## YARIZARAFAT, YARIGERÇƏK

- Pərdə dəbdən düşüb. Yəqin bir vaxtlar gözdən pərdə asanlar indi jalüz asarlar.
- Görəsən, ekoloqlar təpəmdən çıxan tüstüyə görə məni cərimə edə bilərlər?
- Keyfimin saz vaxtından başqa, hər cür vaxtım olur.
- Həyata bax e...Nə həyatı, nə də riyaziyyatı məndən yaxşı bilməyənlərin əksəriyyəti hər gün mənə nəyisə sübut etməyə çalışır.
- Razılıq yaxşı şeydir. Amma özündən razılıq yox.
- Adamlığı olmayandan yaxşı nə isə gözləmək üçün əvvəlcə adam olmağını gözləməlisən...
- Bir yaxşı dost min tanışa dəyər.
- Nə az - nə çox, düz yetmiş il kommunizmin yolu ilə getdik. Yetmiş ildən sonra dağıldı. Yoxsa indiki yollar? Bu gün çəkirlər, səhər dağılır.
- Qulpunu tapa bilmədiyi üçün bəziləri bir işdən yapışmır?
- Axmaqların hərəkəti təkcə gülüş doğursaydı, günümüz sevinc içində keçərdi.
- Ağlı olanların ağlına, ağlı olmayanların başına çox şey gələr.
- Belə baxanda, baxmağa bir şey qalmayıb...
- Əzrayıla qalsa, siyahısında ancaq yaxşı adamlar olar. Yaxşı ki, ona qalmayıb.
- Bir tanışım məni əlli dəfə satana kimi öz qiymətimi bilmirdim.
- Sirri dostuna demə, dostunun da düşməni var.
- Yaxşı ki, papaq dəbdə deyil. Yoxsa indi ya Əli papaqsız idi, ya da Vəli.
- Əvvələr elə bilirdim hamı mən deyəni deyəcək. Sonralar gördüm ki, çoxlarına mən deyəni deməkdənsə, məndən demək sərfəlidir.
- Görəsən tüpürmək, yoxsa tüpürdüyünü yalamaq sanitariya-gigeyena cəhətdən daha pisdir?
- Həqiqəti ancaq acı şeylər xoşlayanlar danışmalıdır?
- Hamını məcbur etmək olmaz ki, kişi kimi düz desinlər. Elə düz desələr, bəsimizdir.
- Niyə mən deyəndə ki, adamda abır-həya yaxşı şeydir, əksəriyyəti mənə birtəhər baxır ... Nədir, zəmanədən çox geri qalmışam?
- Nə bəxt, bəxt deyirsən? Yaxşı adamı olanın yaxşı bəxti də olur.
- Yazmaqdan bir şey çıxsaydı, illərlə çapını gözləyən kitablarım çıxardı...
- O gün biri deyir ki, filan iş kişi işi deyil. Elə deyir, elə bil özünə peşə etdiyi satqınlıq kişi işidir.
- Ermənilərə işlədin, ya ermənilərlə işlədin. Nə fərqi? İkisi də nakişilik deyil ki?!
- İşim heç getmir. Mələk donunu harda satırlar? Gərək mən də özümə birini alım.
- Çox adamın etibarını görəndən sonra daha heç nə görmək istəmirəm.
- Yaltaqlıq "əbədi mühərrikdir". Bütün dövrlərdə işləyib və işləyir.
- Nə vaxta kimi düşünəcəyik ki, işə, iş işdən keçəndən sonra başlamaq yaxşıdır?
- Dostların çoxu sonda düşmənə çevrilirsə, demək mən ömrüm boyu düşmən qazanmışam.
- Kimin nə qədər qazanmağından asılı olmayaraq, hamımız itiririk. Bəli, hər gün ömürdən gün itiririk.
- Hər kəsə qabiliyyətinə görə?! Məndə olmayan o hansı qabiliyyətdir elə?
- Sən demə,bəzi məsələlərdə Allah adamı yox, kiminsə adamı olmaq lazımmış...
- Əvvəllər də iki vur iki dörd eləmirdi?
- Pulsuzluq qəribə şeydi. Hardan baxsan, cibinin deşiyi görünür.
- Allah, pul istəyənlərə pul, vəzifə istəyənlərə vəzifə, mənə də səbr versin.
- Deyəsən gözlərim tamam zay olub. Bəziləri gözlərimə niyə daha çox "dub" kimi görünür?
- Bəzi adamlar özlərini elə aparırlar, elə aparırlar, elə bil bu dünyadan nəsə aparacaqlar.
- Əməlləri ilə ətimizi tökənlər heç olmasa ətimizin pulunu verəydilər.
- Maşınım olmasa da, son illər nadir hallarda piyada gəzirəm. Hər dəfə sırğalı, sürməli "kişi" görəndə, ən azı cin atına minirəm.
- Heyf deyildi şura hökumətinin yalanları! Talonla dondurulmuş ət ala bilməyəndə belə, bir inəkdən ildə lap beş bala alındığına inanırdıq. İnam yaşadırdı bizi.

**Rasif TAHİROV**



## BU BOYDA YALAN OLAR?

**DNT testləri göstərib ki, Helen Kramer, heç də, 1912-ci il aprelin 15-də qəzaya uğramış məşhur "Titanik" gəmisində sağ qaldığı ehtimal edilən iki yaşlı Loreyn Elison deyilmiş. Miss Kramer 1982-ci ildə vəfat edib. O, 1940-cı ildə fəlakətdən sağ qalmış itkin uşaq olduğunu radioda bəyan etdikdən sonra məşhurlaşmışdı. Kramer bütün ömrü boyu bu mövqedə dayanıb, lakin fırıldağı onun özünün fikirləşdiyi və ya bir başqasının ona təlqin etdiyi məlum deyil.**





Kramer inandırırdı ki, onu xilasedici salın göyərtəsinə "Titanik"i layihələndirən Tomas Endrüsün özü qaldırıb. Loreyn Elison və onun anası gəmi batan vaxt ölmüş hesab edilsələr də, onların meyidlərini tapmaq mümkün olmamışdı. Uşağın atasının da həmin gecə ölməsinə baxmayaraq, onun cəsədi tapılmışdı. Kramer bildirirdi ki, onu xilasedici salda olan və sonralar onun həmin itkin uşaq olduğunu deyən adam qızlığa götürərək böyüdüb.

Bu hadisənin daha güclü sensasiya yaratmasına Debrin Vuds - Helen Kramerin nəvəsinin də təsiri böyük olub. O, bildirmişdi ki, nənəsinin Loreyn Elison olduğunu göstərən fiziki sübutlar vardır. Bu yaxınlarda Vuds məlumat vermişdi ki, bu hadisə barədə kitab yazır. Bu isə "Titanik" pərəstişkarlarının "Loreyn Elisonon identifikasiya layihəsi"adlı layihəni yaratmağa gətirib çıxarıb. Layihə hər iki ailənin DNT analizinin keçirilməsi üçün kifayət qədər vəsait toplayıb və nəticə olaraq onlar arasında heç bir əlaqənin olmadığını göstərib.

Gəmi okeanın dibinə gedən vaxt Loreynin gəminin birinci dərəcəli hissəsində yeganə uşaq olduğu bəyan edildikdən sonra itkin uşaq barədə söylənilən fikirlər daha da qızışıb. Gəminin batması ilə bağlı müxtəlif sübutlar göstərir ki, onun ailəsi gəmidə qalıb və Loreynin kiçik qardaşını axtarıb. Bu vaxt o, (qardaşı) ofisiant tərəfindən gəmidən xilasedici qayığa qaldırılıb.

Hesab olunur ki, o, ailənin fəlakətdən canını qurtarmış yeganə üzvü olub.

**F. VƏLİYEV.**

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

Cavan dənizçi doğulduğu kəndə gəlir. Qohumlarından biri soruşur:

- Ay bala, şəhərdə nə işlə məşğulsan?

Dənizçi fəxrlə deyir:

- Gəmi sürücüsüyəm.

Qohumu narahat-narahat tapşırır:

- Ehtiyatlı ol, ay bala! Gəmini çox dərin yerlərdən sürmə.

***

Xəstə:

- Həkim, mənə bir çarə tapın. Nə vaxtdır gecələr yata bilmirəm.

Həkim:

-Yox, bu normal hal deyil. Gecələr mütləq yatmaq gərəkdir.

- Mən də belə fikirləşirəm,- deyə xəstə cavab verir.

- Yaxşı, bəs nə işləyirsən?

- Gecə gözətçisiyəm.

***

- Görəsən Qorbaçovun başındakı ləkələr gedib?

- Başındakılarını deyə bilmərəm. Amma alnındakı ləkələr çətin gedə.

***

- Həbsxanaya təzə gətirilən məhbusdan kamera yoldaşı soruşur:

- Bura niyə düşmüsən?

- Rəngləri qarışdırmışdım.

- Elə şeyə görə adamı tutmazlar axı?

- Pulun saxta olduğunu biləndə, tuturlar.

***

- Mükafatı işçilər arasında necə böləsən ki, hamı razı qalsın?

- Adam kimi!

***

- O doğrudur ki, başqasına quyu qazan, özü düşər?

- Yox. Bizim kənddəki bütün quyuları Abbas qazıb. Hələ indiyədək eşitməmişəm ki, qazdığı quyulardan birinə düşə.

***

Telefon zəng çalır. İşçilərdən biri dəstəyi qaldırır və uzun müddət sakit-sakit dinləyir. Dəstəyi qoyandan sonra otaq yoldaşı soruşur:

- Kim idi?

- Bilmədim. Amma deyəsən səni istəyirdi.

- Deyəsən nədir?

- Ad çəkmədi. Dəstəyi qaldıran kimi, başladı küçə söyüşləri söyməyə.

**Rasif TAHİROV**

## TİMSAH YENİYETMƏNİ UDUB

**Avstraliyada 4 metr uzunluğunda olan timsah iki yeniyetməyə hücum edib. Hadisə ölkənin şimal sahilində Kakadu Milli Parkının turist zonasında baş verib.**



Yırtıcı əvvəlcə 12 yaşlı oğlanlardan birinə hücum edib, o, hər iki qolundan ağır xəsarət alsa da, canını qurtara bilib. Bundan sonra timsah geri qayıdaraq, onun dostunu tutub və suyun altına aparıb...

Avstraliyada timsahların iki növü geniş yayılıb. Uzunluğu 2,5-3 metr olan Avstraliya darüzlü timsahı və uzunluğu 4 metrə çatan böyükağız timsahlar.

Hər gün şirin və duzlu sularda timsahların insanlara hücumu ilə bağlı hadisələr qeydə alınır. Yırtıcılar bəzən quruda da insanlara hücum edirlər.

Keçən il Meksikadakı Akapulko turist şəhərinin sakinləri sel sularının gətirdiyi timsahların hücumundan əziyyət çəkiblər. CAR sakinləri də Limpopo çayı vadisində daşqınlar zamanı belə problemlərlə üz-üzə qalıblar. O vaxt xüsusiləşdirilmiş fermadan 15 minə yaxın timsah qaçmışdı.

## QAYIQLARDAN İSTİFADƏ EDƏCƏKLƏR

**May ayında Danimarkanın Kopenhagen şəhərində keçiriləcək "Eurovision-2014" mahnı müsabiqəsində auditoriyanı qarşılamaq üçün xüsusi transfer qayıqlar fəaliyyət göstərəcək.**




"Eurovision-2014" mahnı müsabiqəsinin rəsmi saytı xəbər verir ki, müvafiq qayıqlar birbaşa dəniz vasitəsilə qonaqları Nyhavn dəniz limanından müsabiqənin keçiriləcəyi "B&W Halleme" arenasına gətirəcək.

Kopenhagenin əsas yolları Rifşelona apardığından yarışmanın işçi qrupu tərəfindən qonaqların rahatlığını təmin etmək məqsədilə Nyhavn dəniz limanına yeni transfer qayıqlar gətirilib. Şounu izləməyə gələcək on minlərlə tamaşaçını yerləşdirmək məqsədi ilə qayıqlara əlavə oturacaqların qoyulması planlaşdırılır.

## ELAN

Gəmiçilikdə "Vasif Hüseynov" yedək gəmisinin növbə mexaniki Qurbanov Allahverən Ağarza oğluna 2013-cü ildə verilmiş 065840 nömrəli buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

REDAKTOR
Rasif İman oğlu TAHİROV

ÜNVANIMIZ:
Bakı şəhəri,
B. Ağayev küçəsi, 117
TELEFONLARIMIZ
Redaktor (050) 670-33-76,
redaktor müavini
(050) 341-26-40
Mətbəə (050) 670-33-76

Qəzetin təsisçisi
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Mətbəəsində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 26.